# *"Gülüstan"dadır*

***(Bünövrəsi 1835-ci ildə A.A.Bakıxanov tərəfindən qoyulmuş "Gülüstan" elmi-ədəbi məclisinin 175 illiyinə)***

Qubanın hər yanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Ovçu qaçırmaz nəzərindən ovun,
Hər məclisdə başda yeri var onun, -
Abbasqulu Ağa Bakıxanovun
Şöhrəti, həm şanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Ad günün yüz yetmiş beşi haqlayıb,
Yaxşıları itirəndə ağlayıb.
Şairləri sözdən çələng bağlayıb,
Aşiqi, mehmanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Üzü nurdur, qədəmləri sayalı,
Gəzir eli şairanə xəyalı
Həm pedaqoq, həm də gözəl qiyalı,-
Şixəmmədin canı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Bu torpağın şairanə qızları,
Bir mələkdir canlar alır nazları.
Sönən deyil Xaçmazın "Ulduzlar"ı,
Seyr elə "Şabran"ı, "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Hər dahinin ürəklərdə öz yeri,
Nizami, Füzuli onlardan biri.
Ölməyib Mirzə Ələkbər Sabiri,
Lap Baba Pünhanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Kələntərli şeirimizin acıdır,
Salahzadə başımızın tacıdır.
Şahin Fazil vallah, çoxdan hacıdır,
Onun da ünvanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Yusif Həsənbəy bu elin şairi,
Kim tanımır, kim Eloğlu Zakiri ?
Pirəlisi,Güləlisi, Tahiri,
Qafar Süleymanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

İzmirağa satiranın gərəyi,
Aşıq Haşım məclislərin ürəyi.
Şah dağına söykənibdir kürəyi,
Bu yurdun ozanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Az qalmışdı yaddan çıxa Sədulla,
Oddan keçib sanki Cabir, Abdulla.
Rima kimi, Aybəniztək uğurla,
Söz qoşub yazanı "Gülüstan"dadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

Xalqımızın şairə var hörməti,
Hər birinin ayrıca şan-şöhrəti.
Bu məclisdə hamımızın zəhməti,
Unudulmaz anı "Gülüstandadır,
Şair, qəzəlxanı "Gülüstan"dadır.

**Qafar Süleyman,**
**2010**